# Əl işlərinin mahir ustası



"Bizi ağıl idarə edir, hisslər yönəldir. Bu həyatda hissiz heç nəyin mənası olmaz. Hisslərin ən alisi isə sevgidir. Sevgi ilə baxdığımız hər şey gözəlləşir, hətta daş belə. İnsan məhz sevgi ilə toxunduğu hər şeyə gözəllik qata bilər".

Bu sözlər Lənkəranda yaşayan və dekorativ-tətbiqi sənətlə məşğul olan Aysel Hüseynovaya məxsusdur. Onun balıqqulağı və dəmir pullardan hazırladığı sənət əsərləri təkcə yerli sakinlərin deyil, rayona səyahət edən xarici turistlərin də diqqətini çəkir. AZƏRTAC-ın bölgə müxbiri Aysel Hüseynovanın əl işləri ilə tanış olub, onun yaradıcılığı ilə maraqlanıb.

Aysel Hüseynova 10 ilə yaxındır ki, bir-birindən maraqlı əsərlər yaradır. İxtisasca müəllim olmasına baxmayaraq, təsviri incəsənətin tətbiqi sənət növünə daha çox maraq göstərir. Bu maraq onu balıqqulağı və dəmir pullardan gözəl əsərlər yaratmağa qədər gətirib çıxarıb.

Onda ilk dəfə bu işə maraq Lənkəran Peşə Liseyinin əməkdaşı Fazil müəllimin tələbələr üçün keçirdiyi master-klas zamanı yaranıb. "Əl işləri ilk baxışdan marağıma səbəb oldu və bununla məşğul olmağa başladım. Davam etdikcə, öz ideyalarımı və fərqli yanaşmamı əlavə etdim", - deyə o vurğulayır.

Aysel Hüseynova deyir ki, əl işləri öz gözəlliyi ilə xarici turistlərin də diqqətini çəkir. Lənkərana gələn bir çox turist onun əl işlərini alaraq aparır. "Əsərlərimdən ibarət xüsusi sərgi açmaq istəyirəm. İstəyirəm ki, şəhərimizə gələn qonaqlar əl işlərimlə daha yaxından tanış olsunlar. Məqsədim bu sənətin sirlərini şagirdlərə də öyrətmək və sənətkarlıq nümunələrini gələcək nəsillərə ötürməkdir", - deyə o bildirib.

Qeyd edək ki, Aysel Hüseynovanın əl işləri bir çox sərgi və festivallarda nümayiş olunub.

Azərbaycan.- 2024.- 22 fevral, № 40.- S.11.